13 (1268) 6-12 aprel 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "ÖLKƏLƏRİMİZ ARASINDA MÜNASİBƏTLƏRİN YAXŞI TARİXİ VƏ ƏMİNƏM Kİ, ÇOX YAXŞI GƏLƏCƏYİ VAR"



Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşdə deyib. O, bildirib: *"Ölkələrimiz arasında münasibətlərin yaxşı tarixi və əminəm ki, çox yaxşı gələcəyi var. Biz həm beynəlxalq məkanlarda, beynəlxalq strukturlar çərçivəsində və əlbəttə, ikitərəfli formatda çox istiqamətlər üzrə əməkdaşlıq edirik. Əməkdaşlığın, o cümlədən ticari-iqtisadi, sənaye kooperasiyası, nəqliyyat sahələrində dərinləşməsi üçün çox yaxşı perspektivlər var. Əlbəttə, biz bunu ətraflı müzakirə edəcəyik. Nümayəndə heyətlərinin üzvləri də öz aralarında fəal diskussiyalar aparacaqlar. Əminəm ki, səfərin nəticələri uğurlu olacaq. Biz birgə fəaliyyətimizin sonrakı proqramını müəyyən edəcəyik"*. Təkbətək görüşdə çıxış edən Prezident Emoməli Rəhmon deyib:

*"Sevindirici haldır ki, bu gün bizim dövlətlərarası münasibətlər bir çox istiqamətlər üzrə inkişaf edir. Biz bu münasibətlərin bütün formatlarda daha da möhkəmlənməsinə böyük əhəmiyyət veririk"*.

## "TÜRKİYƏNİN İLK YERLİ ELEKTROMOBİLİNİN İKİNCİSİNİN AZƏRBAYCANDA OLMASI DOSTLUQ VƏ QARDAŞLIĞIMIZIN TƏZAHÜRÜDÜR"



"Türkiyənin ilk yerli "Togg" elektromobilinin ikincisinin ölkəmizdə olması dostluq və qardaşlıq münasibətlərimizin təzahürüdür". Bunu Prezident İlham Əliyev Türkiyənin Sənaye və Texnologiya naziri Mustafa Varankı qəbul edərkən deyib.

Dövlətimizin başçısı qardaş ölkədə son illərdə həm müdafiə sənayesi, həm də mülki sənaye sahələrində yüksək texnoloji məhsulların istehsal olunduğunu qeyd edib. Azərbaycan Prezidenti vurğulayıb ki, bu, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə xalqının zəkası, istedadı və əməyi nəticəsində ərsəyə gəlib və "Togg"un istehsalına başlanması da bu baxımdan yaxşı nümunədir.

Prezident İlham Əliyev əldə olunan bütün bu uğurlar münasibətilə Türkiyə Prezidentinə, dost və qardaş türk xalqına təbriklərini çatdırıb.

## Misir Prezidenti: Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsinə hazırıq

Aprelin 4-də Azərbaycanın Misirdəki səfiri Elxan Poluxov etimadnaməsini Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisiyə təqdim edib.

Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı (MƏR) səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, təqdimat mərasimində səfir Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Misir Prezidentinə çatdırıb. Qeyd edib ki, cari ilin yanvar ayında Misir Prezidentinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin inkişafında yeni səhifə açıb. Azərbaycan tərəfinin ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə daim hazır olduğunu bildirib.

Öz növbəsində Əbdülfəttah Əs-Sisi, onun da salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib. Xalqların rifahı naminə iki ölkə arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə Misir tərəfinin hazır olduğunu diqqətə çatdırıb.

## "AZƏRİ-MƏRKƏZİ-ŞƏRQİ" PLATFORMASINDAN İLK NEFT 2024-CÜ İLİN ƏVVƏLLƏRİNDƏ ƏLDƏ OLUNACAQ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Bayıl tikinti-quraşdırma sahəsində "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və "Azəri-Mərkəzi-Şərqi" layihəsinin Baş direktoru Nil Filips dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat veriblər.

Bildirilib ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə "Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır.

Bu layihə çərçivəsində dənizdə suyun dərinliyinin təxminən 140 metr olan sahəsində - "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə, həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq.

Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressor və suvurma platformasından "Azəri-Mərkəzi-Şərqi" qurğularına nəql etmək məqsədilə "Azəri-Mərkəzi-Şərqi" və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti olacaq.

Hazırda tikinti işlərinin və istismar sınaqlarının son mərhələsi həyata keçirilir və bu sınaqların artıq 95 faizi tamamlanıb.

Layihənin pik dövründə üst modulların tikintisi işlərinə 4400 nəfərədək işçi cəlb edilib və onların 90 faizindən çoxu Azərbaycan vətəndaşı olub.

Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modulları qurğusunun dənizə rəmzi yola salınmasını bildirən düyməni basıblar.

Bildirilib ki, tikinti işlərinin və istismar sınaqlarının 2023-cü ilin ikinci rübündə tamamlanacağı gözlənilir. Həmin vaxt qurğu STB-1 daşıma barjına yüklənəcək, dənizə göndəriləcək və AÇG yatağı sahəsindəki dayaq blokunun üzərinə quraşdırılacaq. Tikinti işlərinin və istismar sınaqlarının dənizdə həyata keçirilən hissəsi tamamlandıqdan sonra "Azəri-Mərkəzi-Şərqi" platformasından ilk neftin 2024-cü ilin əvvəllərində əldə olunması üçün birinci quyunun qazılmasına başlanacaq.

## Böhran dövründə Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verib

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva Beynəlxalq Enerji Agentliyinin (İAE) icraçı direktoru Fatih Birol ilə görüşüb.

Beynəlxalq Enerji Agentliyinin Parisdəki mənzil-qərargahında keçirilmiş görüşdə bugünkü təlatümlü dünyada enerji səmərəliliyinin əhəmiyyətindən, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən söz açılıb.

Səfir Leyla Abdullayeva Azərbaycanın enerji mənbələri, xüsusilə də Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə yaşıl enerji zonasının yaradılması ilə bağlı Sərəncamı, neft-qaz sahəsinin genişləndirilməsi istiqamətində görülən işlər, həmçinin yaşıl enerji sahəsində layihələrin inkişafına yönəlmiş yeni enerji strategiyası, ölkəmizin enerji siyasəti haqqında ətraflı məlumat verib. Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrinə toxunan diplomat ölkəmizin NATO çərçivəsində fəaliyyətindən, Qoşulmama Hərəkatına sədrliyindən danışıb.

İAE-nin icraçı direktoru Fatih Birol rəhbərlik etdiyi təşkilat və onun məqsədləri barədə məlumat verib. O, Azərbaycanın zəngin enerji resurslarına malik



ölkə olduğunu bildirərək, enerji böhranı dövründə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verdiyini qeyd edib, ölkəmizin çətin vəziyyətdə olan dövlətlərə yardım göstərdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, İAE Dünya Enerji Proqnozları (WEO), Enerji Texnologiyaları Perspektivlərinə dair illik hesabatları, eləcə də neft, təbii qaz, kömür, son illərdə isə bərpa olunan enerji və enerji səmərəliliyinə dair ortamüddətli perspektivlərə dair hesabatları ilə dünyada tanınır.

# “Türkiyəyə yardım qardaşlıq borcumuzdur”




Bunu Prezident İlham Əliyev Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edərkən deyib.

Dövlətimizin başçısı zəlzələ zamanı həlak olanlara bir daha Allahdan rəhmət diləyib.

Prezident İlham Əliyev bu yaxınlarda Ankarada Türkiyə Prezidenti ilə görüşünü və Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərlərini məmnunluqla xatırlayıb. Türkiyə Prezidentinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdıran Azərbaycan Prezidenti Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini, bu xüsusda “Baykar” şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını vurğulayıb. Dövlətimizin başçısı bu şirkətin məhsullarının Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində oynadığı rolu bir daha qeyd edib.

# Ermənistan təxribatlarının intensivləşməsinin Aİ-nin missiyası dövrünə təsadüf etməsi narahatlıq doğurur




“Son dövrlərdə Ermənistan tərəfindən törədilən təxribatların intensivləşməsinin Avropa İttifaqının (Aİ) Ermənistanda missiyasının mövcudluğu dövrünə təsadüf etməsi narahatlıq doğurur”.

Bu sözləri Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov aprelin 3-də Avropa Xarici Fəaliyyət Xidmətinin Şərq Tərəfdaşlığı məsələləri üzrə xüsusi nümayəndəsi Dirk Şubel ilə görüşü zamanı deyib.

Nazir sözügedən missiyadan Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə xələl gətirmək üçün bəhanə kimi sui-istifadə edilməsinin yolverilməz olduğunu vurğulayıb.

# “Erməni sakinlərin reinteqrasiyasında qərarlıyıq”

Bunu aprelin 4-də Xarici İşlər naziri Ceyhun Bayramov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Azərbaycana yeni təyin olunmuş nümayəndəsi Bik Lum ilə görüşündə deyib.

Nazir, həmçinin işğaldan azad edilmiş ərazilərdə münaqişədən sonrakı dövrdə aparılan intensiv bərpa və yenidənqurma işlərindən bəhs edərək, bu işlər çərçivəsində artıq məcburi köçkünlərin Ağalı və Talış kəndlərinə qayıtmağa başladığını qeyd edib. Bununla yanaşı, Azərbaycanın sülh təşəbbüslərinə baxmayaraq, Ermənistan tərəfindən törədilən hərbi-siyasi təxribatlar diqqətə çatdırılıb. İşğal dövründə beynəlxalq təşkilatların missiyalarına imkan yaratmayan Ermənistan tərəfinin son zamanlar beynəlxalq təşkilatlardan öz məkrli niyyətləri üçün istifadə cəhdlərinin qəbuledilməz olduğu vurğulanıb.

# Y.Mixaylov: Moskva İrəvana qarşı çoxdan sərt addımlar atmalı idi



“Ermənistanın Rusiyaya qarşı son hərəkətləri arxadan vurulan kiçik, ancaq ağrılı zərbədir. Ermənistan tez və ya gec öz rəhbərliyinin timsalında Rusiyanın mövqeyinin bütün gücünü hiss edəcək”.

Bu fikirləri AZƏRTAC-a politoloq, millətlərarası münaqişələr üzrə mütəxəssis və təhlükəsizlik məsələləri üzrə ekspert Yevgeni Mixaylov İrəvanın Moskvaya münasibətdə bir-birinin ardınca gələn dost olmayan addımlarını şərh edərkən söyləyib.

**O, deyib:** “Ermənistan Konstitusiya Məhkəməsinin Roma statusunu qanuni olaraq tanıyan sərsəm qərar qəbul etməsi və erməni cəmiyyətinin bəzi liderlərinin Rusiya Prezidenti Vladimir Putini bu ölkəyə səfərə gələrkən həbs etmək çağırışları acınacaqlı nəticələrə gətirib çıxaracaq. Mən buna çox əminəm. Hazırda RF özünün hələ ki, erməni tərəfdaşının belə hərəkətlərinə qarşı cavab tədbirləri haqqında düşünür. “Rospotrebnadzor”un Ermənistandan süd məhsullarının tədarükündən imtina etməsi barədə söhbətlər gəzir. Bu, təbii ki, təzyiq üsuludur, çünki istehsalçı ölkə tamamilə qaydalara uyğun hərəkət etmirsə, o zaman süd məhsullarında həmişə hər hansı mikroorqanizmlər aşkar etmək olar. Düşünürəm ki, bu, yalnız ilk addımlardır”.

Y.Mixaylov sözlərinə yekun vurub: “Zənnimcə, Moskva İrəvana qarşı çoxdan sərt addımlar atmalı idi. Lakin biz hər halda unutmuruq ki, uzun illər tərəfdaş, bu Cənubi Qafqaz respublikasının təhlükəsizliyinin qarantı olmuşuq və əlbəttə, bizim rəhbərlik erməni xalqının əziyyət çəkməsini çox istəmir. Amma hökumət və dövlətin özünün zərər görməsinə gəldikdə, biz bunun üzərində fikirləşirik. Bu dövlətin sadiq olması və bütün razılaşmaları yerinə yetirməsi, habelə Qərblə apardığı oyundan çəkinməsi vacibdir. Düşünürəm ki, indi Rusiyanın yuxarı eşelonlarında da bu barədə düşünürlər. Digər tərəfdən, tamamilə aydındır ki, indi bizim özümüzün çoxlu sayda beynəlxalq problemlərimiz var və faktiki olaraq, Ermənistanın son hərəkətləri arxadan vurulan kiçik, ancaq ağrılı zərbədir. Hesab edirəm ki, Ermənistan tez və ya gec öz rəhbərliyinin timsalında Rusiyanın mövqeyinin bütün gücünü hiss edəcək”.

# Azərbaycan-İtaliya münasibətləri strateji tərəfdaşlıq müstəvisində inkişaf edir



Azərbaycan və İtaliya arasında münasibətlər strateji tərəfdaşlıq müstəvisində inkişaf edir, əlaqələrimizin böyük hissəsi energetika sahəsi ilə bağlıdır. Bu barədə Prezident İlham Əliyev İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çiriellini qəbul edərkən bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, hazırda Avropanın enerji təhlükəsizliyi istiqamətində atılan addımlar Azərbaycan-İtaliya əməkdaşlığını daha da gücləndirir. Eyni zamanda, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Ticarət dövriyyəsinin əsas hissəsinin Azərbaycanın neft-qaz ixracından ibarət olduğunu deyən Prezident İlham Əliyev əməkdaşlığın strukturunun genişləndirilməsi ilə bağlı əlavə addımların atılmasının zəruriliyini vurğulayıb.

# “Azərbaycan bölgədə mərkəzi rola malikdir”




“İtaliya ilə Azərbaycan arasında münasibətlərin hazırkı səviyyəyə yüksəlməsi Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində mümkün olub”.

Bu sözləri İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli Bakıda keçirən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında siyasi məsləhətləşmələrin növbəti raundunda deyib.

Nazir müavini Edmondo Çirielli ölkələrimiz arasında mövcud olan çoxölçülü strateji tərəfdaşlıqdan məmnunluqla danışaraq, münasibətlərimizin hazırkı səviyyəyə yüksəlməsinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin siyasi iradəsi sayəsində mümkün olduğunu bildirib.

Azərbaycanın bölgədə mərkəzi rola malik olduğunu, iki ölkə arasında geniş spektrli iqtisadi gündəliyin mövcudluğunu, uzun illər Azərbaycanın İtaliya üçün mühüm enerji təchizatçısı olduğunu, Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan Trans Adriatik qaz boru kəmərinin fəaliyyətə başlamasından sonra Azərbaycanın İtaliyanın enerji təhlükəsizliyindəki rolunun daha da artdığını diqqətə çatdırıb.

# Milli Məclis Fransa Senatında keçirilmiş “konfrans” ilə əlaqədar Bəyanat yayıb

Azərbaycan Respublikasının Milli Məclisi Fransa Senatında keçirilmiş “konfrans” ilə əlaqədar Bəyanat yayıb.

**Bəyanatda deyilir:**

“2023-cü il martın 16-da Fransa Respublikasının Senatında keçirilmiş üzdəniraq “konfrans” ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakıları bildirir:

Fransa parlamentinin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoyulması ilə nəticələnmiş İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı düşmənçilik və qarayaxma kampaniyası aparan qüvvələrin əlində alətə çevrilməsi təəssüf doğurur.

Fransa qanunvericilik orqanının səlahiyyətlərindən kənara çıxan bu hərəkəti Ermənistan ilə Azərbaycan arasında münaqişədən sonra normallaşma prosesinin irəli aparılması və sülh sazişinin bağlanması istiqamətində beynəlxalq subyektlərin səylərinin gücləndiyi, eləcə də Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə Qarabağ bölgəsinin etnik erməni sakinləri arasında dialoq qurulması üçün tədbirlər görüldüyü bir vaxtda sülh prosesinə zərbə vuran, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələn, revanşizmə rəvac verən bir addımdır.

Konstitusiyasında hər hansı etnik və milli azlıq anlayışı ümumiyyətlə nəzərdə tutulmayan, etnik və dini mənsubiyyəti fransızlardan fərqli insanların hüquqlarına açıq dözümsüzlük nümayiş etdirən, onların müvafiq beynəlxalq mexanizmlər ilə nəzərdə tutulmuş dil, din azadlığını və ya hər hansı digər hüquq və azadlıqlarını təmin etməkdən boyun qaçıran Fransanın, o cümlədən bu ölkənin qanunvericilik qurumunun başqa ölkələrin daxili işlərinə müdaxilə məqsədilə azlıqların hüquqlarını açıq-aşkar siyasi təzyiq alətinə çevirməsi, xüsusən, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində məskunlaşan erməni azlığın “hüquqları və təhlükəsizliyi” məsələsində canfəşanlıq göstərməsi qəbuledilməzdir.

Çox uzaq keçmişə getmədən xatırlatmaq kifayətdir ki, Fransa parlamenti Azərbaycandakı etnik erməni azlığın “hüquqları və təhlükəsizliyi” naminə qondarma təşəbbüslərə girişdiyi bir vaxtda bu ölkədə məhkəmə vasitəsilə Korsika adasının yerli parlamentinin debatlar üçün fransız dilindən başqa bir dildən istifadə edilməsi barədə adət qaydasının qadağan olunduğuna dair qərar verilir, ümumiyyətlə, “Korsika xalqı” ifadəsinin Fransa Konstitusiyasına zidd olduğu təsbit edilir.

Fransa öz ərazisində yaşayan aborigen bir azlıq barəsində “xalq” ifadəsinin işlədilməsini Konstitusiyaya zidd addım kimi qadağan etdiyi halda, Azərbaycan vətəndaşlarının bir hissəsini qondarma “Dağlıq Qarabağ xalqı” və ya “Artsax xalqı” kimi qəbul edir, özünü onların guya pozulmuş hüquqlarının müdafiəçisi kimi qələmə verməyə çalışır.

Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa müstəmləkə hakimiyyəti altında saxlamaqda davam etdiyi Mayot adası üzərində Qəmər Adaları İttifaqının şəksiz suverenliyini tanımaqdan boyun qaçırır, Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmətsizlik nümayiş etdirir. Azərbaycanda yaşayan ermənilərin hansısa hüquqlarından “narahatlıq” ifadə edən Fransa parlamenti üzvlərinin mövcudluğu rəsmən inkar edilən milyonlarca Fransa vətəndaşının üzləşdiyi genişmiqyaslı ayrı-seçkilik barəsində müzakirələr aparması daha məntiqli olardı.

Azərbaycan Respublikasının daxili işlərinə davamlı müdaxilə edən Fransa Senatının və Milli Assambleyasının üzvləri 2021-ci ildə Fransa prezidentinin şəxsi təşəbbüsü ilə “separatizmə qarşı mübarizə və respublika prinsiplərinə hörmət” barəsində qanunlar qəbul etmişlər. “İslam terrorizminə” və ya “İslam separatizminə” qarşı mübarizə adı altında qəbul olunan bu cür qanunlardan ölkədə din, dil, vicdan azadlığını kütləvi şəkildə məhdudlaşdırmaq üçün istifadə edilir, odur ki, Fransa parlamenti üzvlərinin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hədəf alan, Azərbaycan ərazisində separatizmi açıq şəkildə şirnikləndirən davranışı siyasi riyakarlığın ən bariz təzahürüdür.

Bütün bunlar Fransanın Cənubi Qafqaza yanaşmasının ikili standartlar üzərində qurulduğunu, Ermənistan və Azərbaycan ilə münasibətlərdə eqoist geosiyasi maraqlara əsaslandığını açıq nümayiş etdirir.

Azərbaycan ərazilərinin işğal altında olduğu onilliklər ərzində münaqişənin həlli üçün real addım atmayıb, Ermənistanın işğalçılıq siyasətini dəstəkləməyə üstünlük vermiş, münaqişə həll edildikdən sonra da onun yanında yer almış, həm milli səviyyədə, həm də beynəlxalq müstəvidə müxtəlif platformalarda Ermənistanı revanşizmə şirnikləndirən addım və təşəbbüslərin müəllifi olan Fransanın bölgədə itirdiyi mövqelərini kobud üsullarla bərpa etmək cəhdləri uğursuzluğa məhkumdur. Belə bir məqam da nəzərə alınmalıdır ki, Fransa öz davranışı ilə nəinki Cənubi Qafqaz regionunun, həm də bütövlükdə Avropanın sülh, sabitlik və dayanıqlı inkişafla bağlı maraqlarına zərbə vurur.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycana ədalətsiz, qeyri-obyektiv və qərəzli münasibətini dəfələrlə nümayiş etdirmiş Fransanın öz siyasətini yenidən nəzərdən keçirmədikcə, Ermənistanla Azərbaycan arasında normallaşma məsələlərinə hər hansı formada cəlb olunmaması barədə Azərbaycan Hökumətinə müraciət qəbul etmişdir. Fransa tərəfinin son təxribatçı addımları şəraitində Azərbaycan parlamenti prinsipial mövqeyini bir daha təsdiq edərək, Fransa Senatını Cənubi Qafqazda baş verən hadisələrin təhrif edilməsi kimi yanlış praktikadan əl çəkməyə, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı hərəkətlərdən, onun daxili işlərinə müdaxilədən çəkinməyə, Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülh yaradılmasına xidmət edən addımlar atmağa çağırır”.

Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il 4 aprel tarixli iclasında qəbul edilmişdir.

# Heydər Əliyev Azərbaycanın inkişaf strategiyasının banisidir

Müstəqil Azərbaycan Respublikasının banisi, memarı, qurucusu Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin 100-cü ildönümünün keçirilməsi ərəfəsində olduğumuz üçün mən də məqaləmi o dahi şəxsiyyətin gözəl kəlamı ilə başlamaq istəyirəm.

**“İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”.**

Biz də bu deviz altında Azərbaycan iqtisadiyyatının inkişafı naminə bütün gücümüzü səfərbər edərək, inamla çalışacağıq.

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli iqtisadiyyatın sürətlə inkişaf etdirilməsi, məqsədyönlü iqtisadi islahatların uğurla həyata keçirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir.

Ulu öndərimizin əsasını qoyduğu Azərbaycanın inkişaf strategiyasının sonrakı dövrlərdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən inamla və böyük uzaqgörənliklə davam etdirilməsi nəticəsində iqtisadiyyatımız sürətlə inkişaf etmiş, bu gün ölkəmiz regionun siyasi, iqtisadi və mədəni mərkəzinə və MDB məkanında lider dövlətə çevrilmişdir.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadi siyasətinin əsas prioritet istiqamətləri olan qeyri-neft sektoruna investisiya axınının gücləndirilməsi və sürətlə inkişaf etdirilməsi, iqtisadiyyatın bütün sahələrinin genişləndirilməsi, regionların tarazlı inkişafının təmin edilməsi, əlverişli investisiya və biznes mühitinin formalaşdırılması, sahibkarlığın dinamik şəkildə inkişafı, əhalinin maddi-rifahı halının daha da yüksəldilməsi nəticəsində ölkənin sosial-iqtisadi inkişafı keyfiyyətcə yeni strateji mərhələyə qədəm qoymuşdur.

Ulu öndərimiz Heydər Əliyev tərəfindən 16 sentyabr 1994-cü il tarixdə “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununun imzalanması ilə ölkədə auditor xidmətinin dövlət tənzimlənməsinin hüquqi əsası qoyulmuş və sonrakı illərdə milli auditin inkişafı üçün zəruri olan mükəmməl qanunvericilik bazası yaradılmışdır.

Ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlı olan müstəqil auditin ölkəmizdə formalaşdırılması və onun normativ hüquqi bazasının yaradılması qısa zaman kəsiyində maliyyə nəzarətinin sivil forması olan müstəqil auditin uğurlu inkişafına imkan yaratmışdır. Ölkəmizdə auditor fəaliyyətinin dövlət tənzimlənməsi Auditorlar Palatası tərəfindən həyata keçirilir. Auditorlar Palatasının fəaliyyəti dövründə ölkədə beynəlxalq audit standartlarının tətbiqi reallaşdırılmış, auditorların fəaliyyətinə effektiv nəzarətin qurulması sahəsində xeyli işlər görülmüşdür. Auditorlar Palatası beynəlxalq və regional peşə qurumlarında, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) kimi çox nüfuzlu bir təşkilatda ölkəmizi layiqincə təmsil edir və 40-dan çox xarici ölkələrin mühasibatlıq və audit qurumları ilə sıx əməkdaşlıq edir.

Ölkə başçısının rəhbərliyi altında məqsədyönlü iqtisadi islahatlar aparılmış, çoxlu sayda dövlət proqramları və milli fəaliyyət planları qəbul edilmişdir. Həmin dövlət proqramlarında və milli fəaliyyət planlarında Azərbaycan Respublikasının Auditorlar Palatasına həvalə edilmiş vəzifələr vaxtında və yüksək keyfiyyətlə icra edilmiş və nəticələri barədə hesabat hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.



***Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan, son 20 ilə yaxın bir müddət ərzində ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən iqtisadi islahatlar nəticəsində respublikada sahibkarlıq fəaliyyəti, o cümlədən onun bir növü olan auditor xidməti dinamik şəkildə durmadan inkişaf edir.***

Bu günlərdə Azərbaycanın böyük oğlu, xalqının həyatında və taleyində tarixi rol oynamış Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamam olur. İstər sağlığında, istərsə vəfatından sonra Heydər Əliyev haqqında çoxsaylı kitablar, qəzet-jurnal məqalələri yazılıb və bundan sonra da yazılacaqdır. Ona ithaf olunmuş ədəbi əsərlər, musiqi nümunələri, onun həyat və fəaliyyətindən bəhs edən filmlər bundan sonra da uzun illər işıq üzü görəcəkdir. Lakin bir məqamı etiraf etmək lazımdır ki, Heydər Əliyev barəsində yazan hər bir müəllif ən yaxşı halda onun portretinin bir neçə cizgisini, fəaliyyətinin bir neçə istiqamətini dolğun əks etdirməyə müvəffəq olur. Çünki Heydər Əliyev o qədər nəhəng şəxsiyyət və dövlət xadimi idi ki, onu tam və bitkin şəkildə təsvir etmək istənilən yazar üçün sadəcə mümkünsüzdür.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

Heydər Əliyev heyrətamiz iradə və məqsədyönlülüklə ölkəni bu şəksiz fəlakətdən xilas etməyə girişdi. O, belə bir sadə və eyni zamanda, böyük həqiqəti rəhbər tuturdu: nə qədər ki, insanlar özlərinin həyatı və yaşamaq hüququ uğrunda, müstəqillik və milli dövlətçilik uğrunda mübarizə aparmağa qadirdirlər, onlar üçün nə ictimai əmin-amanlığın və barışığın bərqərar olmasında, nə də yaranmış siyasi, sosial və iqtisadi böhrandan çıxış yollarının tapılmasında dəfedilməz maneələr yoxdur və ola da bilməz.

Azərbaycan xalqı bu taleyüklü dövrdə də Heydər Əliyevin yanında sadiq müttəfiqləri oldular, ilk növbədə özlərinə hörməti bərpa etmək üçün bütün iradəsini və həyat enerjisini səfərbər edə bildilər. Məhz Heydər Əliyevin qayıdışı sayəsində Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, xalq sanki ümidsiz olan bir vəziyyətdə perspektivləri gördü, onda öz gələcəyinə inam oyandı. Ölkə dərin ictimai, siyasi və iqtisadi böhranı aradan qaldıra bildi. Azərbaycan təcrid vəziyyətindən çıxdı və dünya birliyinin üzvü oldu, mötəbər beynəlxalq təşkilatlara qəbul edildi. Məhz onun dövründə ölkə quruculuq, demokratik cəmiyyət və hüquqi dövlət yaradılması yoluna qədəm qoydu, Azərbaycan özünün coğrafi-siyasi vəziyyətinin nadir imkanlarından istifadə edə bildi. Bu yol nə qədər enişli-yoxuşlu olsa da, Azərbaycan xalqı öz gələcək inkişafının üfüqlərini məhz Heydər Əliyevin həyata keçirdiyi sistemli fundamental dəyişikliklər çərçivəsində görürdü.

***1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.***

***1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.***

1993-cü ilin iyununda Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdikdə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, qarmaqarışıqlıq və hərc-mərclik baş alıb gedirdi: manatın məzənnəsi sürətlə aşağı düşür, sənaye və kənd təsərrüfatı istehsalının səviyyəsi günbəgün azalır, çörək və digər ən zəruri ərzaq məhsulları üçün növbələr düzülür, bir sıra bölgələrdə separatçılıq əhval-ruhiyyəsi güclənir, cinayətkar ünsürlər meydan sulayır, insanlar etnik zəmində təqiblərə məruz qalır, şəhər və rayonlarda qətl-qarətlər törədilir, ziyalılar baş götürüb ölkədən qaçır, hakimiyyət iddiasında olan qruplaşmalar arasında silahlı toqquşmalar baş verir, Ermənistan silahlı birləşmələri ilə bəsit özünümüdafiə səviyyəsində müharibə aparılırdı, ayrı-ayrı şəxslərin yaratdığı silahlı dəstələr arasında cəbhə xəttində adicə hərbi nizam-intizam və tabeçilik yox idi.

Bütün bunların nəticəsi olaraq, Azərbaycanın yaşayış məntəqələri və rayon mərkəzləri bir-birinin ardınca düşmənə təhvil verilir, Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı və ona bitişik rayonları işğal edirdilər. Adama elə gəlirdi ki, bu ümumi fəlakətdən, hakimiyyəti zor gücünə ələ keçirən, lakin bu yükün bütün ağırlığını və məsuliyyətini dərk etməyən adamların cinayətkarcasına məsuliyyətsizliyi nəticəsində ölkənin düşdüyü çox ağır vəziyyətdən çıxış yolu yoxdur.

***1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. “Əsrin müqaviləsi”ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı.***

Heydər Əliyev demişdir: “Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firəvan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.”

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 32 sazişin imzalanması üçün yol açdı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur.

İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının istifadəsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir.

***1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalanmışdır.***

2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında ümummilli liderimiz Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

Öz tarixi əhəmiyyəti baxımından heç də Bakı-Tbilisi-Ceyhan neft kəmərindən geridə qalmayan hadisə - Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi və “Şahdəniz” yatağından qazın hasilatına başlanması oldu. Məhz bu layihənin məntiqi nəticəsidir ki, Azərbaycan bu gün nəinki neft ixrac edən, eyni zamanda qaz ixrac edən ölkəyə çevrilmişdir.

2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, 2007-ci ilin əvvəlində isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin işə düşməsi respublikamızın dünya enerji bazarındakı rolunu əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir.



*Qəşəm BAYRAMOV,*
*Azərbaycan Respublikasının Auditorlar Palatası Aparatının rəhbəri*

2014-cü ilin sentyabrında “Əsrin müqaviləsi”nin 20-ci ildönümündə Səngəçal terminalında “Cənub” qaz dəhlizi layihəsinin təməli qoyulmuşdur.

Hazırda Azərbaycan qazının dünya bazarına nəqli ilə əlaqədar Cənub Qaz Dəhlizinin fəaliyyətini təmin etmək məqsədi ilə “Şahdəniz” qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi, Cənubi Qafqaz Boru Kəmərinin (SCP) genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrinin həyata keçirilməsi üzrə genişmiqyasli işlər həyata keçirilir.

***Çətin siyasi və iqtisadi şəraitdə imzalanan “Əsrin müqaviləsi” Azərbaycanın iqtisadi inkişafının təməlini qoyub.***

2017-ci ilin sentyabrında “Əsrin müqaviləsi”nin 23-cü ildönümündə Bakıda “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun işlənməsi üzrə Hasilatın Pay Bölgüsünün düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişi (PSA) imzalandı. Yenilənmiş sazişlə “Əsrin müqaviləsi”-nin müddəti 2050-ci ilədək uzadıldı.

2017-ci ilin noyabrında Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib. Bütövlükdə çıxarılmış 2 milyard ton neftin təxminən 700 milyon tonu müstəqillik dövründə hasil edilmişdir.

Heydər Əliyev öz ölkəsini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanılmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu dövr ərzində o, XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır. Görkəmli siyasi xadim, ABŞ prezidentinin milli təhlükəsizlik üzrə sabiq köməkçisi Zbiqnev Bjezinski dövlətimizin başçısı haqqında bu fikirdə olmuşdur: ***“Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir”.***

Ankaradakı Bilkənd Universitetinin banisi, dünya şöhrətli alim İhsan Doğramacı Heydər Əliyev şəxsiyyətini qiymətləndirərkən demişdir: ***“Heydər Əliyev zəmanəmizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, Vətənini düşünmüşdür.***

*(davamı 4-cü səhifədə)*

(əvvəli 3-cü səhifədə)

***Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və öz xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında Vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir... O, ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır".***

Heydər Əliyevin dövründə Azərbaycanı onun hüdudlarından çox-çox uzaqlarda tanıdılar. Mübaliğəsiz deyə bilərik ki, o, ölkəni siyasi təcriddən çıxararaq, xarici siyasətdə çox böyük irəliləyiş yaratdı. Azərbaycanın səsi mötəbər beynəlxalq təşkilatların və dövlət başçıları sammitlərinin tribunalarından getdikcə daha tez-tez və gur eşidilməyə başladı, Azərbaycan beynəlxalq strukturlara üzv qəbul edildi.

Hamıya məlumdur ki, Heydər Əliyev son dərəcə savadlı və yüksək erudisiyaya malik insan idi. Məhz buna görə də o, dövlət quruculuğunun elə bir konsepsiyasını işləyib hazırlaya bilmişdir ki, burada sosiologiya və fəlsəfənin bir çox mücərrəd problemləri ideyalar və elm sahəsindən əməli siyasət müstəvisinə keçmişdir.

Heydər Əliyev bizim müasirimizdir. Elə bircə bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev, eyni zamanda taleyin xalqımıza bəxş etdiyi dahi tarixi şəxsiyyətdir. Heydər Əliyev bütün varlığı ilə Azərbaycanın, onun bu gününün və gözəl gələcəyinin təcəssümüdür.

Dünyanın görkəmli siyasətçiləri, dövlət və hökumət rəhbərləri, tanınmış siyasi xadimləri, məşhur yazıçılar Heydər Əliyevi siyasət nəhəngi, nadir istedad sahibi, tarixi və əfsanəvi şəxsiyyət adlandırırdılar.

***Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır. Gələcək nəsillər taleyin bizə bəxş etdiyi bu tarixi dövrü böyük qibtə hissi ilə xatırlayacaq, öyrənəcək, təhlil edəcəkdir. Bizim hər birimiz isə bir vətəndaş kimi taleyin bizə bəxş etdiyi bu nadir imkandan ölkənin tərəqqisi naminə istifadə etməyə hazır və qadir olmalıyıq.***

Heydər Əliyevin Azərbaycan tarixinə təsiri çox böyükdür. O, müstəqil Azərbaycan dövlətinin arxitekturasını yaratmış, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur. İllər keçəcək və çiçəklənən Azərbaycanın vətəndaşları bir gün deyəcəklər: ***"Heydər Əliyev ölkəni idarə edir, onun ideyaları zamanın sınağından çıxmışdır və bu gün də insanların şüurunda və qəlbində yaşayır. Ölkədə fəaliyyət göstərən siyasi və iqtisadi sistem əsl Vətəndaşın, böyük Şəxsiyyətin, qüdrətli Liderin əməyinin bəhrəsidir".***

Ulu Öndərin Vətəni və xalqı qarşısında müstəsna xidmətlərindən biri İlham Əliyev kimi oğul yetişdirməsidir. Ulu Öndərin layiqli varisi Prezident İlham Əliyev 20 ildir ki, Azərbaycana bacarıqla rəhbərlik edir, onu inamla gələcəyə aparır. Yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra insanların qəlbində ümid çırağı yanmağa başladı. Ulu Öndərin söylədiyi **"gün gələcək Azərbaycanın bayrağı Şuşada və digər işğal olunmuş ərazilərdə dalğalanacaq"** sözləri xalqımızın inamını artırdı. Artıq işğaldan azad olunmuş bütün rayon, kənd və qəsəbələrdə geniş abadlıq quruculuq işləri aparılır. Hesab edirəm ki, biz 44 günlük möhtəşəm Qələbəyə görə həm də ümummilli lider Heydər Əliyevə borcluyuq. Çünki bizi 30 il ərzində qələbəyə yaxınlaşdıran ordu quruculuğunun əsasını məhz ümummilli lider Heydər Əliyev qoyub. Ümummilli lider təkcə Azərbaycan dövlətinin deyil, həm də qalib Azərbaycanın böyük Zəfərinin banisidir.

Ulu öndər Heydər Əliyevin xalqına, xalqın isə Ümummilli Liderinə olan sarsılmaz inamı və sonsuz sevgisi belə bir deyim yaratdı – **"Heydər-Xalq, Xalq-Heydər"**. Əslində, bu ifadə özündə bəlkə də bəşər tarixində indiyədək mövcud olmuş ən möhkəm və sarsılmaz xalq-iqtidar birliyini təcəssüm etdirir. Heç bir şübhə yoxdur ki, Azərbaycanın öz ərazi bütövlüyünü möhtəşəm tarixi Qələbə ilə təmin etməsi, bu gün də davam edən və günü-gündən daha da möhkəmlənən bu birliyin növbəti təntənəsidir. Azərbaycan xalqı öz xilaskar oğlu Heydər Əliyevin əziz xatirəsini daim yaşadacaq, Ümummilli Liderin müəyyənləşdirdiyi yolla bundan sonra daha böyük qələbələrə doğru inamla addımlayacaq.

# Azərbaycan türk dövlətləri ilə ticarət dövriyyəsini 15 milyard dollarıdək yüksəltməyi hədəfləyib

"Milli Məclisin plenar iclasında "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanmış Saziş təsdiq olunub.

Dəhliz tərəflər arasında daşınan mallar barədə əvvəlcədən məlumat mübadiləsi etmək, onların gömrük prosedurlarını mümkün qədər asanlaşdırmaq məqsədi daşıyan, könüllülük əsasında və bütün nəqliyyat növlərində istifadə edilə bilən elektron sistemi nəzərdə tutur.

Saziş qüvvəyə mindikdən sonra tərəflərin gömrük orqanlarının razılığı əsasında 6 aylıq Pilot Layihə icra olunacaq. Pilot Layihəyə dəhlizin praktiki reallaşdırılmasını təmin etməsinə xidmət edəcək".

Bunu Milli Məclisin deputatı Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, son illər türk dövlətləri arasında iqtisadi əlaqələrin sürətli inkişafı və ticarət dövriyyəsində kəskin artımlar müşahidə olunur. 2022-ci ildə Azərbaycan ilə türk dövlətləri arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 70 faiz artaraq 5 milyard 23 milyon dollardan 7 milyard 170 milyon dollaradək yüksəlib.

Deputat qeyd edib ki, ötən il bütün türk dövlətləri ilə ticarət dövriyyəmizdə artım qeydə alınıb.

Vurğulayıb ki, ticarət dövriyyəsinin böyüməsi birbaşa türk dövlətləri arasındakı münasibətlərin xüsusən son 2 ildə dərinləşməsi ilə bağlıdır. Azərbaycanın əldə etdiyi Zəfərdən sonra türk dövlətləri strateji əməkdaşlığı daha da gücləndiriblər. Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsinin yaxın illərdə 15 milyard dollarıdək yüksəlməsi hədəflənir. 21-ci əsr türk dünyasının əsridir.

# Fərdi sahibkarlara verilən kreditlər 2.23 mlrd. manata çatıb

Azərbaycanda mikro – fərdi sahibkarlara verilən kreditlərin həcmi artmaqdadır.



Belə ki, 1 mart 2023-cü il tarixinə hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslərə verilən kreditlərin həcmi illik müqayisədə aylıq 2%, illik isə 48.2% artmaqla 2 milyard 233 milyon manat təşkil edib. Fərdi sahibkarlara kreditlərin 2 milyard 169.8 milyon manatı milli və 63 milyon manatı isə xarici valyutada verilmişdir.

Fərdi sahibkarların banklardakı əmanətləri 248 mln. manat olub, bunun yalnız 32.6 milyon manatı xarici valyutadadır.

# Aİ TAP vasitəsilə İtaliyaya idxal olunan qazın dəyərini açıqlayıb

2023-cü ilin yanvar ayında İtaliya Trans-Adriatik boru kəməri ilə Azərbaycandan 842 722 785 avro dəyərində təbii qaz satın alıb.



Bu barədə Avropa İttifaqının (Aİ) statistika idarəsi olan "Eurostat"dan bildiriblər.

"Eurostat"ın məlumatlarına əsasən, bu ilin yanvar ayında Azərbaycandan İtaliyaya 732 675 000 kubmetr qaz ixrac olunub.

Hesabat dövründə Aİ ölkələrinin Azərbaycan qazının idxalına çəkdikləri ümumi xərc 1 006 939 047 avro, tədarüklərin həcmi isə 972,9 milyon kubmetr olub.

Qeyd edək ki, 2023-cü ilin yanvar-fevral ayları ərzində ölkədə qaz hasilatı 8 milyard kubmetr təşkil edib. "Azəri-Çıraq-Günəşli" yatağından 2,2 milyard kubmetr, "Şahdəniz" yatağından isə 4,4 milyard kubmetr qaz hasil edilib. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən isə 1,4 milyard kubmetr qaz hasil olunub. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə qaz hasilatı 4 faiz, yəni 319 milyon kubmetr artıb.

Hesabat dövründə qaz ixracı 4,3 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13 faiz azdır. Bu ilin yanvar-fevral aylarında Avropaya 1,9 milyard kubmetr, Türkiyəyə 1,7 milyard kubmetr, Gürcüstana isə 0,7 milyard kubmetr qaz nəql olunub. Bu dövr ərzində TANAP vasitəsilə Türkiyəyə 0,9 milyard kubmetr qaz nəql olunub.

# Azərbaycan Avropanın enerji təhlükəsizliyində gələcəkdə də mühüm rol oynayacaq

"Ötən 8 ay ərzində Azərbaycan ilə "Masdar", "ACWA Power" və "Fortescue Future Industries" şirkətləri arasında 25 QVt həcmində "yaşıl enerji" layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlıq haqqında sənədlər imzalanıb". Bu sözləri energetika nazirinin müavini Elnur Sultanov Bakıda keçirilən Azərbaycan-ABŞ Yaşıl Enerji Forumunda çıxış edərkən deyib. O bildirib ki, bu layihələr 2040-cı ilədək mərhələli şəkildə həyata keçiriləcək.

# Türkiyənin Azərbaycana ixracı 18 % artıb

Bu ilin yanvar-mart aylarında Azərbaycan Türkiyədən 570,778 milyon ABŞ dolları dəyərində əmtəə və xidmət idxal edib.

Türkiyə İxracatçılar Məclisinin məlumatına görə bu, ötən ilin eyni dövrü ilə müqayisədə 17,6% çoxdur.

Təkcə mart ayında isə Türkiyənin Azərbaycana ixracının dəyəri 205,768 milyon ABŞ dolları təşkil edib. Bu isə 1 il əvvələ nisbətən 15,4% çoxdur. Son 1 ildə qonşu ölkənin ixracının dəyəri 1,1% azalaraq 54,317 milyard ABŞ dollarına enib.

3 ay ərzində Türkiyədən ən çox ixrac 4 milyard 877 milyon ABŞ dolları olmaqla Almaniyaya (il ərzində 0,4% artıb), 2 milyard 965 milyon ABŞ dolları olmaqla ABŞ-a (13,6% azalıb) və 2 milyard 904 milyon dolları olmaqla İtaliyaya (5% azalıb) həyata keçirilib.

# Azərbaycanla Yaponiya arasında ikiqat vergitutma aradan qaldırılır

Azərbaycan Respublikası ilə Yaponiya arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutma aradan qaldırılacaq. Bu, Milli Məclisin aprelin 4-də keçirilən iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikası ilə Yaponiya arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə" qanun layihəsində əksini tapıb.



Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edilib.

# Türk şirkəti Qarabağda həyata keçirilən nəqliyyat layihələrindən danışıb



Türkiyənin "Proyapı" tikinti şirkəti 2025-ci ilədək avtomobil yolları, körpü və tunellərin cari tikintisini bitirməyi planlaşdırır.

Bu barədə çərşənbə axşamı Trend-ə "Proyapı" şirkətinin Azərbaycandakı idarəetmə heyətinin sədr müavini Akif Aygen deyib. Onun sözlərinə görə, şirkət minimal müddətdə "Zəfər Yolu"nu inşa edərək istismara verib.

"Füzuli-Şuşa avtomobil yolunun tikintisi davam edir. Bu yolun 2024-cü ildə tikintisinin tamamlanması və istismara verilməsi planlaşdırılır. Bundan başqa, Mincivan-Ağbənd avtomobil yolunu, Kəlbəcər-Laçın yolunu inşa etməyə davam edirik. Bununla yanaşı, Xudafərin-Qubadlı-Laçın yolunun tikintisi davam etdirilir. Bu yol Xudafərini Laçın və Gəncə ilə birləşdirəcək", - o deyib.

A.Aygen "Zabuxçay" su anbarının tikintisinin də davam etdiyini vurğulayıb.

"Zabuxçay" Qarabağda inşa olunan ilk su anbarıdır. Biz Azərbaycanın işğaldan azad edilmiş ərazilərində inşa olunacaq digər su anbarlarını da layihələndirməkdəyik", - o vurğulayıb.

# Macarıstan və Rumıniya Azərbaycanın təbii qazına ümid edir



Bu barədə Macarıstanın Xarici İşlər və Xarici İqtisadi Əlaqələr naziri Peter Siyarto Rumıniyanın Energetika naziri Vircil-Daniel Popesku ilə keçirilən görüşün yekunları ilə bağlı özünün "Facebook" hesabında yazıb.

"Macarıstan və Rumıniyanın taleyi təbii qaz tədarükünün təhlükəsizliyi baxımından əlaqəli olacaq, çünki hər ikimiz də bir tərəfdən Azərbaycanın təbii qazına ümid edir, digər tərəfdən isə Qara dənizdə dəniz yataqlarından hasilatın başladılmasını gözləyirik", - o deyib.

Nazirin sözlərinə görə, Macarıstan və Rumıniya "ev tapşırıqlarını yerinə yetirərək" iki ölkənin qaz kəmərləri sistemini birləşdirən interkonnektorun ötürücülük qabiliyyətini 2,5 milyard kubmetrədək artırıblar.

"Qara dənizdən təbii qazı Macarıstan sərhədinədək nəql edə bilən boru kəmərinin inşası haqqında qərar qəbul edilib", - Siyarto əlavə edib.

# За что в Нахчыване подняли руку на Нариманова?

Увы, но в Азербайджане все еще продолжают воевать, если не сказать расправляться с историей. Накануне в Нахчыване произошло постыдное событие – демонтирован памятник основателю второй Азербайджанской Республики, выдающемуся политику, драматургу, писателю, врачу Нариману Нариманову.
Спрашивается, чем мотивированы действия новых нахчыванских властей? И почему подняли руку на историческое наследие? Неужели в представлении новых чиновников в Нахчыване, задавшихся целью реформирования талыбовской системы управления, демонтаж памятника выдающемуся азербайджанцу и есть кульминационное проявление реформаторского пыла и задора? И неужели новые нахчыванские правители не удосужились изучить историю становления наримановедения: ведь именно основатель третьей республики Гейдар Алиев реабилитировал Нариманова после сталинских репрессий.
Подняли руку на Нариманова, потому что он был коммунистом? Но ведь сталинисты, Центр и дашнако-большевистское крыло ВКП(б) заклеймили имя Нариманова как националиста и долгие годы боролись с его политическим и литературным наследием.
Его обвиняют в причастности к советизации Азербайджана? Да, Нариманов был одним из основателей канувшего в лету СССР, но к концу жизни он, в отличие от многих большевиков, признал свои ошибки и заблуждения. Признал не в оппозиции, а будучи одним из руководителей советского государства!
Чем еще Нариманов не угодил нахчыванским правителям? Тем, что спас от расстрела и репрессий весь цвет азербайджанской интеллигенции, целую плеяду азербайджанских либералов, включая Узеира Гаджибекова, Мехмандарова, Юсифа Везира Чеменземинли, Гусейна Джавида, Джафара Джаббарлы? А может, его обвинят в территориальных уступках? Да, в пользу Азербайджана! Ведь именно Нариманов вместе с Шахтахтинским стояли у истоков Московского соглашения, а затем и Карского договора, с помощью которых Азербайджан и отстоял Нахчыван под особым протекторатом Турции. Или забыли, как Нариманов спас судьбу нагорной части Карабаха, которую с легкой руки левого крыла азербайджанских большевиков и Москвы сдали Армении?
Приведут новый аргумент – дескать, Нариманов способствовал сдаче западного Зангезура Армении. При этом не задумавшись над вопросом: а кто же отстоял восточный Зангезур – цитадель, воссозданную после Второй Карабахской войны? И


**Именно Гейдар Алиев реабилитировал имя Наримана Нариманова**

не обратятся к историческим документам, чтобы понять очевидную истину – западная часть Зангезура к моменту крушения первой республики находилась под контролем армии армянского генерала Нжде. Там же Гарегин Нжде и провозгласил республику «Горной Армении». Политика – искусство возможного. И Нариманов - один из ярких и совестливых представителей политического искусства. Да, Нариманов - это острый ум и незапятнанная совесть нашей второй государственности.
В чем же еще провинился Нариманов в глазах вандалов, поднявших руку на его памятник? В том, что поставил крест на проекте группировки Али Гейдара Караева и Мирзы Давуда Гусейнова, вознамерившихся включить Азербайджан в состав РСФСР? И вырвал из рук Серебровского бакинскую нефть, пригласив в правительство одного из лидеров мусаватистского правительства Бехбуд хана Джаваншира – спасителя Шуши? Которого направил за новейшими технологиями в Германию, но дашнакская пуля оборвала его жизнь по дороге в Стамбуле? Может, Нариманов вызвал гнев нового нахчыванского хана своей просветительской и педагогической деятельностью еще со времен царской России? В том, что просвещал невежественные и косные мусульманские массы, открывал школы, проводил съезды учителей и зарождающейся интеллигенции, прививая азербайджанцам любовь к науке и образованию? Или тем, что не позволил Красной Армии расстреливать в упор мусульман на традиционных церемониях Ашуры?
Неужели бессмертный «Надир шах», вышедший из-под пера Нариманова, вызвал ярость новых нахчыванских властей? А ведь именно подобные косные и дремучие образы нашли описание в его драматургии, их он показал в своей повести «Наданлык» («Невежество»)!
Необъятное политическое, литературное и просветительское наследие Нариманова не вместится в одну статью, в одно повествование, в одну книгу,.. ибо его наследие требует всестороннего исследования и осмысленного научного подхода. Но этот акт вандализма натолкнул нас на еще один актуальный вопрос: доколе мы будем бороться с прошлым, с нашей историей, с наследием? Когда же придем к цивилизованному подходу и начнем чтить свою историю, раздумывая над философией истории, не вырывая из исторического контекста жизнь и борьбу наших выдающихся людей? Ведь в том же Риме по сей день стоит и Форум, и памятник Гарибальди, и монумент Муссолини… Переписывание, фальсификация и идеологизация истории – это и есть самое худшее проявление воинствующего большевизма. С которым в последние годы своей жизни и боролся Нариманов!
Нариманов пережил борьбу с дашнаками, леваками и противниками республики, а сталинисты пытались стереть его имя из учебников истории… А спустя десятилетия знамя сталинистов подхватили узколобые адепты Эльчибея, открыв новый фронт борьбы с Наримановым как символом ушедшей эпохи. Времена не выбирают, в них живут и умирают. Нариманова судят спустя сто лет за то, что он выбрал свое время.
Несомненно, имя Нариманова останется на века и переживет борцов с памятниками – новорожденных доморощенных и провинциальных феодалов, разрушивших его единственный памятник в Нахчыване, который он отстоял во имя сегодняшнего Азербайджана…

**Эльнур Эминоглы, haqqin.az 3 апреля 2023**

## Опыт Азербайджана в разминировании - пример для всего мира

Опыт Азербайджана в области разминирования территорий был высоко оценен в британском парламенте и показан в качестве примера для всего мира.
Как сообщает Trend со ссылкой на посольство Азербайджана в Великобритании, по случаю 4 апреля - дня просвещения по вопросам минной опасности и помощи в деятельности, связанной с разминированием, член парламента Великобритании Мэтью Оффорд, председатель парламентской группы по угрозам взрывоопасных боеприпасов написал статью под названием «Азербайджан - страна нефти, прогрессивного мышления и мин». Статья опубликована на официальном сайте указанной парламентской группы (https://www.appg-explosive-threats.co.uk/).
В статье автор рассказывает о своем посещении разрушенного города Агдам в мае прошлого года и отмечает, что за время 30-летнего конфликта с Арменией на территории Азербайджана были установлены тысячи мин, выпущены ракеты и бомбы.
«Благодаря помощи международных неправительственных организаций и финансовой помощи правительства Великобритании Агентство Азербайджана по разминированию постепенно очищает территорию от взрывчатых веществ. На сегодняшний день более 19 000 гектаров земли очищены от более 55 000 взрывчатых веществ»,- говорится в материале.

## Эрдоган заявил о необходимости реформировать СБ ООН



Президент Турции Реджеп Тайип Эрдоган вновь заявил о необходимости реформирования системы ООН, передает Trend со ссылкой на «Анадолу».
«Миропорядок, при котором судьбу человечества вершат всего лишь 5 стран, недееспособен. Всеобъемлющее реформирование Совета ООН крайне необходимо», - сказал турецкий лидер по окончании церемонии ифтара (вечерний прием пищи во время месяца Рамазан) в штаб-квартире правящей Партии справедливости и развития (ПСР) в Анкаре.
Касаясь перспектив урегулирования украинского кризиса, глава государства выразил уверенность в возможности установления между Россией и Украиной справедливого мира. По его словам, достижение этой цели «предоставит сторонам достойный выход из сложившейся ситуации и выведет регион из водоворота, в который он был втянут». Президент Турции также выразил отношение к провокациям в отношении священной книги мусульман – Корана, которые имели место в ряде стран.
«Подобным злодеяниям, которые оскорбляют почти 2 млрд. человек и вызывают у них гнев, должен быть положен конец», - призвал глава турецкого государства.

## В Баку необходимо открытие торгового дома Казахстана



Об этом сказал заместитель министра торговли и интеграции Казахстана Кайрат Торебаев в ходе азербайджано-казахстанского бизнес форума.
«Мы видим положительный вклад в рост товарооборота между странами за счет создания в Казахстане торгового дома. Считаю, что открытие в Алмате нового торгового дома Азербайджана положительно повлиял на рост товарооборота», - добавил он.
Торебаев отметил, что Азербайджан является одной из стран с экспортно-ориентированной продукцией.
По его словам, ежегодно между Азербайджаном и Казахстаном подписываются контракты на 30 миллионов долларов и выше.
Замминистра сказал, что в Казахстане зарегистрировано 1 170 компаний с азербайджанским капиталом, а в Азербайджане - 145 с казахстанским.

## Трампу может грозить до 136 лет тюремного срока

Обвинения, предъявленные бывшему президенту США Дональду Трампу предусматривают максимальное наказание в виде 136 лет тюремного заключения, сообщает телеканал FoxNews. «Обвинения предусматривают максимальное наказание в виде 136 лет тюремного заключения, хотя фактический срок, скорее всего, будет намного меньше, если он будет признан виновным по любому или всем пунктам обвинения», - считают на телеканале.



Ранее экс-президенту США предъявили обвинения по 34 пунктам, касающимся фальсификации деловых документов и преступного сговора.

# Azərbaycanı dünyaya daha yaxından tanıdan qlobal platforma

***2023-cü ilin mart ayında respublikamız bir neçə beynəlxalq tədbirə ev sahibliyi etdi ki, bunlardan biri X Qlobal Bakı Forumu idi. "Dünya bu gün: çağırışlar və ümidlər" mövzusunda keçirilən budəfəki Foruma da qlobal miqyasda maraq olduqca böyük idi. Bunu Forumda iştirak etmək üçün Azərbaycana 4 prezidentin, 2 baş nazirin, 6 spiker və nazirin, BMT-nin 5 qurumunun rəhbərliklərinin, 25 sabiq prezidentin, 21 sabiq baş nazirin səfəri də təsdiqləyir. Ümumilikdə Forumda 61 ölkədən 360-dək nümayəndə iştirak etdi.***




**Əməkdaşlıq məkanı olan Azərbaycan həm də birləşdiricilik və barışdırıcılıq missiyası həyata keçirir**

Azərbaycanın mürəkkəb regionun liderinə, qlobal miqyasda söz sahibinə çevrilməsi dövlətimizin böyük nailiyyətidir. Bu yolda aşırımlardan inamla keçən, qarşıya çıxan maneələri uğurla dəf edən respublikamız bu gün öz siyasətinin prioritetlərini qətiyyət və inamla reallaşdırır.

Təcrübə göstərir ki, Azərbaycanın yürütdüyü siyasət həm region, həm də beynəlxalq səviyyədə pozitiv prosesləri stimullaşdırır. Belə ki, Azərbaycan öz müstəqil siyasəti ilə yalnız əməkdaşlıq və inteqrasiya istiqamətində fəaliyyət göstərir. Bütün bunların nəticəsi kimi Azərbaycan uzun müddətdir ki, aktual qlobal problemlərin həllində aktiv iştirak edən ölkə kimi tanınır. Məhz respublikamızın təşəbbüsü ilə həyata keçirilən enerji layihələri həm regionda, həm də Avropanın neftə və qaza olan tələbatını əhəmiyyətli dərəcədə yaxşılaşdırıb.

Düzgün və düşünülmüş siyasət, cəmiyyətdəki əmin-amanlıq, sabitlik, dünyanın müxtəlif qütblərində dayanan dövlətlərlə yaxşı münasibətlər, beynəlxalq təşəbbüslərimiz bu gün ölkəmizi dünyada yalnız sabitlik və inkişaf deyil, həm də əməkdaşlıq məkanı kimi təqdim edir. Təsadüfi deyil ki, hətta Rusiyanın və ABŞ-ın ali hərbi rəhbərlikləri də dialoq və məsləhətləşmə üçün Bakını seçirlər. Bu, həm də Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin dünyanın beynəlxalq təşkilatları, güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanması və qəbul edilməsinin əyani təsdiqidir.

Azərbaycanın dünyanın ən etibarlı sülh və tərəfdaşlıq platforması olması artıq beynəlxalq səviyyədə qəbul olunan reallıqdır. Respublikamız bu sahədə daim öz təcrübəsini nümayiş etdirməklə və beynəlxalq səviyyədə mükəmməl nümunələr ortaya qoymaqla birləşdirici və barışdırıcı faktora çevrilib. Bu mənada respublikamızın müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərdən biri böhranlara qarşı birgə beynəlxalq mübarizənin təşkili, bu istiqamətdə mövcud olan və ya yarana biləcək problemlərin aradan qaldırılması yollarının müəyyənləşdirilməsi ilə bağlı qlobal fəaliyyətin istinad nöqtəsinə çevrilməsidir.

**Qlobal hərəkata çevrilən "Bakı prosesi"**

Bu mövzudan bəhs edərkən xüsusilə qeyd etməliyik ki, Azərbaycanı dünyaya tanıdan əsas səbəblərdən biri də təşəbbüsləri ilə qlobal səviyyədə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, milli və ümumbəşəri dəyərlərin, multikulturalizm ənənələrinin qorunub saxlanmasına və inkişaf etdirilməsinə, problemlərin həllinə dəyərli töhfələr verməsidir. Uzun illərdir ki, ölkəmiz bütün dünyanın diqqət mərkəzində olan mühüm məsələlərin müzakirə olunduğu ünvan kimi tanınır.

Məsələn, Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu və digər tədbirlər məhz Azərbaycanda keçirilir. Azərbaycanın təşəbbüsü ilə yaranan «Bakı Prosesi» qlobal hərəkata çevrilmişdir və BMT tərəfindən dəstəklənir. Prezident İlham Əliyev bildirmişdir: ***"Azərbaycan 2008-ci ildə çox vacib prosesin təşəbbüskarı olmuşdur və o, sonradan "Bakı prosesi" adlandırılmışdır. Bu gün həmin təşəbbüs beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Bu təşəbbüs də artıq çıxışımda qeyd etdiyim amillərdən qaynaqlanırdı. Bununla yanaşı, Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvü olan məhdud sayda dövlətlərdən biridir.***

***Avropa Şurası ölkələrinin nazirlərinin 2008-ci ildə toplantısını təşkil edərkən biz İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin müvafiq nazirlərini də dəvət etdik. Yəni, ilk dəfə idi ki, belə böyük tədbir təşkil edildi və 100-dən artıq dövlətin nümayəndəsi mədəniyyətlərarası münasibətlər mövzusunu müzakirə etmək üçün bir araya gəldi.***

***İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi Azərbaycan 2009-cu ildə nazirlər səviyyəsində toplantıya ev sahibliyi etdi. O vaxt biz Avropa Şurasına üzv dövlətlərin nazirlərini Bakıya dəvət etdik. Bu təşəbbüs və format sonradan "Bakı prosesi" adlandırıldı və biz bununla fərəhlənirik. Birincisi, ona görə ki, bu, bizim təşəbbüsümüz idi. İkincisi isə ona görə ki, Bakı və Azərbaycan mədəniyyətlərarası dialoqun mərkəzi olmağa layiqdir".***

"Bakı prosesi"nə dünyanın dörd bir yanından elm adamları, siyasətçilər qoşulublar. Ötən dövr ərzində ölkədə "Bakı Prosesi" çərçivəsində, həmçinin bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilmişdir. UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanmışdır.

2009-cu ilin oktyabrında "Bakı - İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində dünyanın 45-dən çox ölkəsindən, eləcə də ISESCO, Avropa Şurası, TÜRKSOY və digər təşkilatlardan 200-dən çox nümayəndənin iştirakı ilə Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransının, 2011-ci il aprelin 7-də Bakıda 20 ölkədən 435 qonağın, o cümlədən AŞPA, ISESCO, Dünya İctimai Forumu, UNESCO və BMT rəsmilərinin iştirakı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, 2016-cı ilin aprelində BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi bu uğurlu prosesin və fəaliyyətin nəticəsidir.

Birləşmiş Millətlər Təşkilatı Baş katibinin 2017-ci ilin sentyabrında BMT Baş Assambleyasının 72-ci sessiyasındakı "Dünyanın rifahı naminə sülh mədəniyyətinin, dinlərarası və mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviqi" adlı məruzəsində 2008-ci ildən etibarən müvəffəqiyyətlə reallaşdırılan "Bakı Prosesi"ni xüsusi vurğulaması sivilizasiyalar arasında qədim dövrlərdən bəri körpü rolunu oynamış Azərbaycanın mədəniyyətlərarası dialoqa hazırkı mərhələdə verdiyi töhfələrin beynəlxalq miqyasda etirafı olaraq qiymətləndirilməlidir.

Humanitar mövzulu forumların keçirilməsi üçün Azərbaycanın seçilməsi təsadüfi deyil. Çünki qədim və zəngin mədəniyyətə malik, müxtəlif ənənələrin, sivilizasiya və konfessiyaların əsrlər boyu dinc yanaşı mövcud olduğu Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün, həqiqətən də, əvəzsiz məkandır. Xalqımızın qədim tarixi, zəngin mədəniyyəti, tolerantlığı barədə vaxtilə yetərincə məlumatı olmayan dünya dinamik inkişafın nəticəsi olaraq Azərbaycanı ildən-ilə daha yaxından tanıyır və onun artan nüfuzunun şahidinə çevrilir. Elə bu amillər də humanitar dialoqa mühüm töhfə verən ölkə statusunu daha da möhkəmləndirir və bu mövzuda dünyanı düşündürən məsələlərin müzakirə edildiyi beynəlxalq tədbirlərin məhz ölkəmizdə keçirilməsini şərtləndirir.

Bir faktı xüsusi qeyd etmək lazımdır - Azərbaycan dünyada analoqu olmayan nadir ölkələrdəndir ki, o, eyni zamanda, həm Avropa, həm də Asiyanı təmsil edən müxtəlif beynəlxalq qurumlarda, o cümlədən Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında təmsil olunur. Bu baxımdan Azərbaycanın humanitar əməkdaşlığa, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa verdiyi töhfələr, bu istiqamətdə təşkil etdiyi tədbirlər sanballı olmaqla bərabər, çağdaş çağırışlarla daha çox adekvatdır.

**Azərbaycanın nüfuzunu yüksəldən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi**

Məmnunluqla qeyd edilməlidir ki, respublikamızda ənənəvi şəkildə həmin tədbirlərin bir qisminin keçirilməsi artıq ənənə halını alıb və bunlardan biri də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2013-cü ildən bəri keçirilən Qlobal Bakı Forumudur. Bu Forum dövrümüzün aktual məsələlərinin, dünyada baş verən mühüm hadisələr və cərəyan edən proseslərin müzakirə olunduğu mühüm platformadır. İndiyə qədər Bakıda müxtəlif mövzulara həsr olunmuş 10 forum keçirilib. Prezident İlham Əliyevin himayəsi altında keçirilən forumlarda hər zaman onlarla ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Qeyd etdiyimiz kimi, Qlobal Bakı Forumu Prezident İlham Əliyevin himayəsi altında keçirilir. Forumun təşkilatçısı isə Nizami Gəncəvi Beynəlxalq Mərkəzidir. Mərkəz dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci il tarixində şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilmişdir. Bakı şəhərində yerləşən Mərkəz qeyri-hökumət təşkilatı olaraq ətrafında müxtəlif xarici ölkələrin keçmiş dövlət və hökumət başçılarını və nüfuzlu beynəlxalq ekspertləri birləşdirir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsas məqsədi dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən qlobal tədbirlərə, həmçinin fəaliyyətlərə töhfə verməkdir. Eyni zamanda, Azərbaycan elm və mədəniyyətinin görkəmli nümayəndəsi, dahi şair və mütəfəkkir Nizami Gəncəvinin irsinin araşdırılması, dünyada təbliği, eləcə də dialoq, tolerantlıq, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoqun təşviq edilməsidir. Həmçinin Nizami Gəncəvinin ədəbi irsinin araşdırılması və təbliği məqsədilə nüfuzlu yerli və xarici alimlərdən ibarət alimlər şəbəkəsi formalaşdırılmışdır.

Bu istiqamətdə uğurlu fəaliyyətinə görə Mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq platformaya çevrilib. Fəaliyyət göstərdiyi 11 il ərzində Mərkəz 20-dən çox ölkədə (o cümlədən Azərbaycan, Belçika, Çin, Misir, Yunanıstan, İtaliya, İordaniya, Latviya, Polşa, İsveçrə, Türkiyə, ABŞ və s.) 24 ali səviyyəli görüşlərə, 10-dan çox faktaraşdırıcı missiyaya və 20-dən çox koordinasiya görüşlərinə ev sahibliyi edib. Ən mühümü odur ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır.

Göründüyü kimi, Prezident İlham Əliyevin himayəsi altında fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi 10 ildən çoxdur ki, qlobal fəaliyyətlə məşğuldur. 2022-ci il oktyabrın 26-da Mərkəzin həmsədri İsmail Serageldini, İdarə Heyətinin üzvlərini, keçmiş dövlət və hökumət başçılarını qəbul edən Prezident İlham Əliyev qurumun beynəlxalq səviyyədə əməkdaşlığının genişlənməsindən, dünyada rolunun və nüfuzunun artmasından məmnunluğunu ifadə edib. Dövlət başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin müxtəlif ölkələrində tədbirlər keçirməsini təşkilatın artan nüfuzunun göstəricisi kimi dəyərləndirib. ***"Azərbaycan xalqının çoxəsrlik qədim mədəniyyətinin və zəngin tolerantlıq ənənələrinin təbliğinə töhfə verən qurumlardan biri kimi Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dünyanın nüfuzlu beynəlxalq təşkilatları, aparıcı elmi-mədəni mərkəzləri ilə səmərəli əməkdaşlıq münasibətləri yaratmışdır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəal iştirakı və yüksək təşkilatçılığı ilə ümumbəşəri məsələlərin ətraflı müzakirəsinin aparıldığı və sivilizasiyalararası dialoqun qurulması, eləcə də qlobal əhəmiyyətli layihələrin dəstəklənməsi baxımından mühüm əhəmiyyətə malik bir sıra mötəbər forumlar keçirilmişdir"***, - deyə İlham Əliyev bildirmişdir. Dövlətimizin başçısı həmçinin forumların birinin açılış mərasimindəki nitqində qeyd etmişdir ki, iştirakçıların, çıxışçıların, Foruma müraciət edəcək mötəbər şəxslərin siyahısına baxmaq kifayət edər ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nisbətən qısa müddətdə ziyalıların, dövlət məmurlarının, siyasətçilərin, jurnalistlərin, dövlət xadimlərinin və vətəndaş cəmiyyəti üzvlərinin biliklərini, təcrübəsini və baxışını toplayan, böyük potensialı olan çox azsaylı aparıcı beynəlxalq təsisatlardan birinə çevrildiyini deyək.



Uğurlu fəaliyyətinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nüfuzu ildən-ilə yüksəlib, beynəlxalq təşkilatlar və bir sıra ölkələrin aparıcı institutları ilə birbaşa əlaqələr yaranıb. Podgoricki Klubu (Bosniya), Marianna V.Vardinoyannis Vəqfi (Yunanınstan), Quqenhaym (ABŞ), Çin İnnovasiya və İnkişaf Strategiyası İnstitutu (ÇXR), Çin Xalq Xarici İşlər İnstitutu (ÇXR), Taihe İnstitutu (ÇXR), Amerika Xarici Siyasət üzrə Milli Komitə (ABŞ), Berqqruen İnstitutu, Robert F.Kennedy İnsan Hüquqları (ABŞ), Schwarzman Alimləri (ÇXR), İtalyan Beynəlxalq Təşkilatları Cəmiyyəti (İtaliya), Dünya Sənət və Elm Akademiyası (WAAS) kimi nüfuzlu beynləxalq və regional təşkilatlarla sıx əməkdaşlıq Mərkəzin uğurlu fəaliyyətinin göstəricisidir.

1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti olmuş Vayra Vike-Freyberqanın və 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti olmuş İsmail Serageldinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri olması, habelə 2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti olmuş Rosen Plevneliyevin, 1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti olmuş Petar Stoyanovun, 2005-2010-cu illərdə Ukraynanın Prezidenti olmuş Viktor Yuşenkonun, 2003-2018-ci illərdə Monteneqronun Prezidenti olmuş Filip Vuyanoviçin, 2004-2012-ci illərdə Serbiyanın Prezidenti olmuş Boris Tadiçin, 2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti olmuş İvo Yosipoviçin, 2008-2011-ci illərdə Belçikanın Baş naziri olmuş İv Letermenin, 2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri olmuş Zlatko Laqumciyanın, 2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi olmuş Əmr Musanın Mərkəzin idarə heyətində olması onun mühüm siyasi çəkisindən xəbər verir.

Martın 9-da X Qlobal Bakı Forumunun açılışında çıxışı zamanı Prezident İlham Əliyev bu nüansa toxunaraq deyib: ***"Bakı Qlobal Forumunun iştirakçılarının təmsilçilik səviyyəsi və intellektual potensialı aparıcı beynəlxalq konfranslara uyğundur. Əlbəttə ki, bu, həmsədrlərin, bütün idarə heyətinin düşünülmüş və səmərəli fəaliyyətinin təzahürüdür. Burada 60 ölkədən 350 nəfər iştirakçı var. Onların sırasında 50-dən artıq hazırkı və sabiq prezident və baş nazir var. Beləliklə, təxmin edə bilərik ki, müzakirələrin səviyyəsi kifayət qədər yüksək olacaq. Əlbəttə, ən dəyərlisi beynəlxalq münasibətlərlə bağlı yeni yanaşmalara dair tövsiyələrdir. Mən Forumun proqramı ilə tanış oldum. O, hər zaman olduğu kimi kifayət qədər genişdir. Proqram Yaxın Şərqi, Afrikanı və Qərbi Balkanları əhatə edir. Bununla yanaşı, bu gün dünya gündəliyinin aktual məsələləri də müzakirələr mövzusu sırasındadır".***

Əvvəldə qeyd etdiyimiz kimi, paytaxtımız Bakı aktual qlobal problemlərin həlli ilə bağlı müzakirələrin keçirildiyi beynəlxalq ünvana çevrilib. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi isə Azərbaycanın bu istiqamətdə təşəbbüslərinə beynəlxalq tədbirlərin keçirilməsi ilə layiqli töhfələr verir. Mərkəz qlobal məsələləri müzakirə edən və geniş beynəlxalq birliyi öz sıralarına qata bilən aparıcı beynəlxalq institutlardan birinə çevrilmişdir. Ənənəvi olaraq Bakıda təşkil olunan Qlobal Bakı Forumuna və dünyanın üzləşdiyi problemlərin müzakirə olunduğu müxtəlif yüksək səviyyəli görüşlərə ev sahibliyi edən Mərkəz ən yüksək səviyyəli əməkdaşlıq platforması kimi tanınır.

***(davamı gələn sayımızda)***

**Ziyad SƏMƏDZADƏ,**
**akademik,**
**Milli Məclisin deputatı**

# BU TERRORU TÖRƏDƏNLƏR ÖZ MƏQSƏDLƏRİNƏ NAİL OLA BİLMƏYƏCƏKLƏR

**Milli Məclisin sədri Sahibə Qafarova deputat Fazil Mustafanı müalicə olunduğu xəstəxanada ziyarət edib**



***Milli Məclisin sədri Sahibə Qafarova yaşadığı evin qarşısında terror aktına məruz qalmış deputat Fazil Mustafanı müalicə olunduğu xəstəxanada ziyarət edib, onun ailə üzvləri ilə görüşüb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, Fazil Mustafanın vəziyyəti və müalicəsinin gedişi ilə maraqlanan spikerə onun tezliklə sağalması üçün tibb personalı tərəfindən bütün lazımi tədbirlərin görülməsi barədə məlumat verilib.

Sahibə Qafarova qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı müvafiq tapşırıqlarını verib və məsələ aidiyyəti dövlət qurumlarının diqqət mərkəzindədir.

Spiker, həmçinin Prezident İlham Əliyevin Milli Məclisin deputatına qarşı bu xain terror aktını törətmiş şəxsin və ya şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunması istiqamətində təxirəsalınmaz əməliyyat-istintaq tədbirlərinin aparılması ilə bağlı hüquq-mühafizə orqanlarına göstərş verdiyini xatırladıb.

Bir daha diqqətə çatdırıb ki, bu terroru törədənlər öz məqsədlərinə nail ola bilməyəcəklər.

Fazil Mustafa göstərilən diqqət və dəstəyə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib. O, dövlətçilik mövqeyinə bundan sonra da sadiq qalacağını, bu terror aktının onu amalından çəkindirməyəcəyini söyləyib.

*****

Daima dövlətimizin, xalqımızın xoşbəxtliyini düşünən görkəmli ziyalı, millət vəkili Fazil Mustafaya qarşı suiqəsd dövlətçiliyimizə yönəldilmiş terrordur. Fazil Mustafa öz fəaliyyətində cəmiyyətimizin maariflənməsinə, dünyəvi dəyərlərin təbliğinə üstünlük verirdi. Cəhalətə, xurafata qarşı kəskin çıxışları ilə seçilirdi. O, doğma Azərbaycanımızı təhdid edən, xalqı cəhalətə və xurafata sürükləyən şəxslərlə, böyük bir qüvvə ilə millətimizə zərbə vurmaq istəyənlərlə mübarizə aparırdı. Düşünürəm, Fazil Mustafaya atılan xain gülləsi müstəqil, günü-gündən inkişaf edən, qüdrətlənən Azərbaycana tuşlanıb. Ölkəmizdə sabitliyi pozmaq istəyən qüvvələr bilsinlər ki, heç vaxt buna nail olmayacaqlar.

Mən əminəm ki, çox qısa bir müddətdə hüquq-mühafizə orqanları cinayətkarların layiqli cəzalarına çatdırılmasını təmin edəcəkdir.

Çox hörmətli Fazil müəllimə şəfa diləyir, tezliklə sağalıb sıralarımıza qayıtmasını arzulayıram.



**Milli Məclisin deputatı Ziyad Səmədzadə**

*****

Mili Məclisin deputatı Fazil Mustafaya qarşı edilən sui-qəsdin məqsədi ölkədə xaos yaradılmasına, sabitliyin pozulmasına nail olmaqdır. Amma Azərbaycanın hüquq-mühafizə orqanları terror şəbəkəsinə imkan verməyəcək ki, meydan sulasınlar.



Azərbaycan Vətən müharibəsindən əvvəl Aprel döyüşləri ilə Ermənistana mesaj ötürdü. Ölkəmiz bu döyüşlərlə bildirdi ki, qarşı tərəf özünə yığışmasa, aqibəti ağır olacaq. Elə də oldu. Vətən müharibəsi ilə Ermənistanı yerində oturtduq, düşmən kapitulyasiya aktına qol çəkməli oldu.

İndi də ölkəmizdə xaos yaratmaq və sabitliyi pozmaq istəyənləri xəbərdar etmək lazımdır ki, artıq daşları yığmaq zamanıdır. Özlərini yığışdırsınlar, sonra pis olacaq.

**Milli Məclisin deputatı Əli Məsimli**

*****

Mili Məclisin deputatı Fazil Mustafaya qarşı edilən sui-qəsd Azərbaycan dövlətinə qarşı təhdiddir. Azərbaycan xalqını və dövlətini heç nə ilə qorxutmaq mümkün deyil. Xalqımız dəmir yumruq kimi birləşib və dövlətimiz çox güclüdür. Onlar belə çirkin hərəkətlərlə bizə heç nə edə bilməyəcəklər.

Azərbaycanın hüquq-mühafizə orqanları terror şəbəkəsi ilə əlaqədə olan hər kəsi ortaya çıxaracaq və onlar layiq olduğu cəzanı alacaqlar.

Biz hamımız bilirik ki, xaricdən idarə olunan terror şəbəkəsinin üzvləri hansı məqsədə xidmət edirlər. Azərbaycan xalqı olaraq dövlətimizin yanında olmalıyıq.



**Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva**

*****

Milli Məclisin deputatı Fazil Mustafaya qarşı törədilən sui-qəsd terror aktı idi. Təbii ki, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının peşəkar fəaliyyəti nəticəsində bu terror aktının üstü çox qısa zamanda açıldı və hüquqi qiymət verildi. Terrorun həyata keçirildiyi yerə diqqət yetirəndə görürük ki, bu, öncədən planlaşdırılmış və hətta kameralardan uzaq bir yerdir. Amma buna rəğmən Azərbaycan təhlükəsizlik orqanları kifayət qədər peşəkar fəaliyyət həyata keçirib. Məhz bu peşəkarlıq nəticəsində biz Azərbaycanda baş verən bu tip cinayətlərin üstünün qısa zamanda açıldığını müşahidə edirik.

Ölkəmizə qarşı təhdid yolunu seçmiş ölkələr, xüsusilə də Tehran rejimi başa düşməlidir ki, Azərbaycanın təhlükəsizlik orqanları kifayət qədər peşəkar və güclü, sistemli fəaliyyət həyata keçirirlər. Bütövlükdə Azərbaycan bu təhdidlərə cavab vermək gücündə olan bir ölkədir. Son hadisə bir daha təsdiq edir ki, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin peşəkar fəaliyyəti nəticəsində həm bu tip halların qarşısının alınması, həm də terror halı baş veribsə, daha qısa zamanda üstünün açılması reallaşır. Azərbaycanın təhlükəsizlik sistemi bu cür təhdidlərə vaxtında cavab vermək gücündədir.



**Milli Məclisin deputatı Vüqar Bayramov**

*****

Fazil Mustafaya qarşı terror aktı törədənlərin məqsədi cəmiyyətdə qorxu, inamsızlıq və xaos yaratmaq, ictimai-siyasi sabitliyi pozmaq, deputatları, ictimai və siyasi xadimləri susdurmaq və milli maraqlarımızı açıq müdafiə etməkdən çəkindirmək, reallıqda təsir göstərə bilmədiyi dövlətimizə terror yolu ilə təsir etməkdən ibarət idi.

Ancaq bunların heç biri baş vermədi, çünki bu cür alçaq hücumlarla nə dövlətimizi, nə xalqımızı, nə də biz deputatları qorxutmaq mümkün deyil. Bu çirkin terror aktını sifariş edənlər hələ də anlamırlar ki, 44 günlük Vətən müharibəsini Zəfərlə başa çatdıran, dünyaya əsl güc və birlik nümayiş etdirən Azərbaycan xalqı və dövləti bu kimi xain planların və təxribatların qarşısını almağa qadirdir.



**Milli Məclisin deputatı Azay Quliyev**

*****

Milli Məclisin deputatı Fazil Mustafaya qarşı sui-qəsd cəhdi, bu terror aktı müstəqillik qazanandan Azərbaycana qarşı əvvəl bir az örtülü, İkinci Qarabağ savaşından sonra isə açıq şəkildə yeridilən düşmənçilik siyasətinin tərkib hissəsidir. Yəni, sərhədlərimiz boyunca keçirilən hərbi təlimlərin, hətta onların özlərində belə təəccüb və tərəddüd doğuran təkidli dəstək təkliflərinin, Tehrandakı səfirliyimizdə törədilən terrorun, dayanmadan bura narkotik maddələrin göndərilməsi kimi təxribatların arxasında hansı niyyət gizlənirsə, haqqında danışdığımız olayda da məqsəd eyni olub. Amma bu terror aktının planlaşdıranların tez bir zamanda təsbit edilmələri, icraçıların artıq tutulmaları faktı da göstərdi ki, Tehran dövləti öz məqsədinə çatmayacaq, Azərbaycanı yolundan döndərə bilməyəcək, dövlətimizə qarşı yönələn təxribatların qarşısı qətiyyətlə alınacaq, buradakı nökərləri qanunun sərt üzünü də görəcəklər.



**Milli Məclisin deputatı Sahib Alıyev**

*****

***Milli Məclisin deputatı Fazil Mustafaya qarşı cinayətlə bağlı 4 nəfər tutulub, Bakının bir neçə istiqamətində polis postları quraşdırılıb.***

***Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətinin şöbə rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev bildirib. O deyib ki, Qaradağ rayonunda polisin atəş açması ilə bağlı məlumatlar yayılıb. Bakının bir neçə istiqamətində polis postları quraşdırılması və nəzarət yoxlama tədbirləri keçirilir.***

***Elşad Hacıyevin sözlərinə görə, deputat Fazil Mustafaya qarşı cinayət hadisəsi ilə əlaqədar Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti və Baş Prokurorluğun birgə keçirdiyi əməliyyat-axtarış, əməliyyat-istintaq tədbirləri çərçivəsində 4 nəfər müəyyən olunaraq saxlanılıb.***

# Selçuk Bayraktar Sumqayıt Kimya Sənaye Parkında olub



Ölkəmizdə səfərdə olan "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar Sumqayıt Kimya Sənaye Parkında olub.

İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, qonağa ölkəmizdə fəaliyyət göstərən sənaye zonaları, burada sahibkarlar üçün mövcud investisiya imkanları, tətbiq edilən vergi və gömrük güzəştləri barədə məlumat verilib, sənaye zonalarının təqdimatı keçirilib. Daha sonra Selçuk Bayraktar Sumqayıt Kimya Sənaye Parkında görülmüş işlərlə, Sənaye Parkının rezidenti "STP" MMC-nin fəaliyyəti ilə tanış olub.

# "ABŞ Azərbaycanın enerji sahəsində etibarlı təchizatçı rolunu dəstəkləyir"

"Bakıda Azərbaycan-ABŞ "Yaşıl enerji" forumunun keçirilməsi iki dövlətin enerji sahəsindəki əməkdaşlıq əlaqələrini gücləndirəcək".



Bu sözləri Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Hüqo Qevara forumda çıxış edərkən deyib. O bildirib ki, "yaşıl enerji" sahəsində əməkdaşlıq ABŞ və Azərbaycan şirkətləri arasında əlaqələrin yaradılmasına yeni imkan açacaq və perspektivdə ABŞ-Azərbaycan ikitərəfli iqtisadi münasibətlərinin artmasına təkan verəcək. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı vacib rolu vurğulayan Hüqo Qevera deyib ki, enerji sahəsi həmişə iqtisadi əməkdaşlığımızın vacib hissəsi olub və ABŞ Azərbaycanın enerji sahəsində etibarlı təchizatçı rolunu dəstəkləyir. Bu forum Azərbaycanın "yaşıl enerji" potensialının tam mənimsəməsi üçün texniki və təmizləyici innovasiyaların həyata keçirilməsinə yardım edəcək.

# Qazaxıstan şirkətlərinin sənaye zonalarına investisiya yatırması müzakirə edilib

Aprelin 4-də Qazaxıstan Respublikasının ticarət və inteqrasiya nazirinin müavini Kairat Torebayev və Qazaxıstanın ölkəmizdəki səfiri Serjan Abdıkarimovla İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev arasında görüş keçirilib. İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, görüşdə Qazaxıstan şirkətlərinin sənaye zonalarına investisiya yatırması, sənaye zonalarında istehsal olunan məhsulların ixrac imkanları və digər əməkdaşlıq məsələləri müzakirə edilib.

Qarabağın görkəmli simaları

# Firudin Şuşinski (1925-1997)



***Azərbaycan və sovet musiqişünası və tədqiqatçı, Azərbaycan SSR əməkdar incəsənət xadimi Firudin Mahmud oğlu Həsənov 20 oktyabr 1925-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşinskinin atası Firudin bəy Köçərlinin dostu idi və oğluna onun adını qoymuşdu. F.Şuşinski ilk təhsilini Şuşada almışdır. Oğlunda musiqiyə hədsiz sevgi görən Məhəmməd kişi 1931-ci ildə Firudini Şuşa musiqi məktəbində təhsil almağa qoyur.***

Şuşa pedaqoji məktəbini bitirdikdən sonra dörd ay boyunca dərs dediyi Malıbəyli kəndindəki məktəbə müəllim göndərilmişdir. 1942-ci ildə könüllü olaraq İkinci Dünya müharibəsinə yollanmışdır. General Pavel Batovun komandanlığı altında Kursk döyüşündə iştirak etmişdir. Döyüşlərdə fərqləndiyinə görə "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

Müharibədən qayıtdıqdan sonra bir müddət Ağdam şəhərində məktəbdə ədəbiyyat müəllimi işləmişdir. 1946-cı ildə ali təhsil almaq üçün Bakıya gəlir. Şuşinski Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə qəbul olur və oranı müvəffəqiyyətlə bitirir. Məzun olduqdan sonra Bakıdakı 45 və 61 nömrəli məktəblərdə tarix müəllimi kimi çalışmışdır. Şuşinski musiqi tariximizdə qiymətli əsərlərin müəllifidir.

***Doğma Qarabağının tarixini ciddi şəkildə öyrənmək məqsədi ilə Firudin Şuşinski arxivlərdə çox vaxt keçirirdi. 1948-ci ildə Səməd Vurğun Şuşinskiyə "Vaqif və Qarabağ" mövzusunda material hazırlamağı tapşırdı. Bu məqalə Şuşinskinin ilk nəşr olunmuş əsəri idi.***

Şuşinski o illərdə kəskin tənqid olunmasına baxmayaraq, Nəriman Nərimanovun tərcümeyi-halı ilə də maraqlanırdı. Tələbəlik illərindən Firudin bəy öz fenomen yaddaşını ictimai elmlərin dərindən mənimsənilməsinə sərf edirdi. O, hələ I kursdan tarix, fəlsəfə, ədəbiyyat, xüsusilə klassik və aşıq ədəbiyyatını öyrənməklə yanaşı, H. Heynenin təbirincə desək, "incəsənətin son sözü" olan muğamların yaranması, ifaçıları haqqında maraqlı məlumatlar toplayırdı. O, ölkəmizin şəhərlərini, obalarını qarış-qarış gəzib unudulmuş muğam ifaçıları haqqında qələmə alacağı yazılarına yeni-yeni materiallar yığırdı.

1968-ci ildə Firudin Şuşinskinin doğulduğu Şuşanın tarixinə və məşhur şəxsiyyətlərinə həsr olunmuş "Şuşa" kitabı nəşr olundu. Əsər çox böyük səs-küyə səbəb olmuş, Şuşinski ermənilər tərəfindən millətçilikdə ittiham edilmişdir. Çünki müəllif şəhər haqqında erməni müəllifləri tərəfindən uydurulmayan, həqiqi tarixi açıb göstərmişdir. Ancaq daha maraqlısı "Şuşa" kitabının Azərbaycanda da birmənalı qarşılanmamasıdır. Moskvanın təkidi ilə bu sual Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosunda qaldırıldı. Altı saatdan çox davam edən Büro iclasında çıxış edənlər tərəddüd etmədən gənc tədqiqatçını "burjua millətçisi", "xalqlar dostluğunun düşməni" və s. ilə ittiham etmişdilər.

***70-ci illərdə Şuşinski Azərbaycan xalq musiqiçilərinin tərcümeyi-hallarının öyrənilməsi ilə məşğul olurdu. Bir-birinin ardınca onun Cabbar Qaryağdıoğlu və Seyid Şuşinski haqqında kitabları nəşr olundu. 1979-cu ildə onun "Azərbaycanın xalq müğənniləri və musiqiçiləri" kitabı Moskvada işıq üzü gördü. 2007-ci ildə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin təşəbbüsü ilə Şuşinskinin topladığı materiallar əsasında tarzən Mirzə Sadıxın həyat və yaradıcılığına həsr olunmuş "Sadıxcan" kitabı nəşr olunmuşdur.***

Firudin Şuşinski 1997-ci il oktyabrın 25-də vəfat etmişdir. Öz vəsiyyətinə uyğun olaraq Bərdə şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

# "BMT Təhlükəsizlik Şurasında təcili islahatlara ehtiyac var"



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT sistemində islahatların aparılmasının vacibliyini bir daha bəyan edib.

Bunu Türkiyə lideri hakim Ədalət və İnkişaf Partiyasının (AKP) Ankaradakı qərargahında keçirilən iftar mərasimindən sonra deyib.

"Bəşəriyyətin taleyini cəmi 5 ölkənin həll etdiyi dünya nizamı təsirsizdir. Təcili olaraq BMT Şurasında hərtərəfli islahatlara ehtiyac var", – Ərdoğan vurğulayıb.

# "Ukraynanın bərpası üçün yüz milyardlarla dollar lazımdır"

Dünya Bankının (DB) hesablamalarına görə, Ukraynanın yenidən qurulması üçün yüz milyardlarla dollara ehtiyac olacaq.

Bunu DB-nin prezidenti Devid Malpas Vaşinqtonda Atlantik Şurada çıxışı zamanı deyib.

"Söhbət yalnız bərpa etmək, hər şeyi əvvəlki vəziyyətinə qaytarmaq üçün lazım olan yüz milyardlarla dollardan gedir. Yalnız bundan sonra gələcək haqqında düşünmək mümkün olacaq", – Malpas deyib.

Onun sözlərinə görə, ötən il fevral ayının sonundan etibarən Dünya Bankı Ukraynaya qeyri-hərbi yardım üçün 21 milyard dollar göndərib.

Bank rəhbəri həmçinin qeyd edib ki, ölkənin gələcək Avropa İttifaqına üzvlüyü üçün onunla "bazarlar və logistika baxımından" əlaqələrin qurulması çox vacib olacaq.



# BMT İran əleyhinə qətnamə qəbul edib

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası İranda edamların artmasını, insan haqlarının geniş və kobud şəkildə pozulmasını və zorakılıqda iştirak edənlərə diplomatik toxunulmazlığı pisləyən qətnamə qəbul edib.

Qərar Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 47 üzv dövlətindən 23-nün səsverməsi ilə təsdiq edilib.

Kuba, Çin, Pakistan və Vyetnam da daxil olmaqla 16 ölkə səsvermədə bitərəf qalıb, İnsan Hüquqları Şurasının 8 üzvü isə qətnamənin əleyhinə səs verib. Qətnamədə İranda insan haqlarının kobud, dəfələrlə və davamlı şəkildə pozulmasından dərin təəssüf hissi ifadə edilir, edamların sayının artması, o cümlədən xalq etirazlarında həbs olunanların edam edilməsi ilə bağlı narahatlıq ifadə edilir.

Qətnamədə İranda "cins, etnik mənşə, din və ya siyasi fikirlərə əsaslanan sistematik ayrı-seçkilik və zorakılıq" pislənilib.

# Müasir dövrdə ən böyük problemlərdən biri fiziki passivlikdir

***6 aprel Ümumdünya Fiziki Aktivlik Günüdür.***

***2002-ci ildən başlayaraq hər il aprelin 6-sı bütün dünyada "Hər gün otuz dəqiqə fiziki fəallıq!" devizi altında qeyd edilir.***

***Bu əlamətdar gün Azərbaycanda hər il müxtəlif maarifləndirici tədbirlərlə geniş qeyd olunur, ictimaiyyət fiziki passivliyin sağlamlığa zərərli təsirləri barədə məlumatlandırılır.***

***Fiziki aktivlik ürək-damar xəstəlikləri, xərçəng və şəkərli diabet kimi qeyri-infeksion xəstəliklərin profilaktikası və sağlamlıq üçün vacib əhəmiyyətə malikdir.***

**Bununla bağlı suallarımızı Mərkəzi Gömrük Hospitalının fizioterapevti Səidə Kərimovaya ünvanladıq. İlk sualımız yaşadığımız müqəddəs Ramazan ayında fiziki aktivlik haqqında oldu.**



***- Səidə həkim, fiziki aktivlik insan sağlamlığı üçün vacibdir. Hazırda insanların çoxu oruc tutur. Bu ay fiziki məşğələlərlə nə vaxt məşğul olmaq lazımdır ki, orqanizmin fəaliyyətinə müsbət təsir göstərsin?***

- Ramazan ayında insanlar oruc tutur, müəyyən müddət ərzində ac qalırlar, buna görə də bu ay məsləhət görərdim ki, iftarla imsak arasında olan müddətdə fiziki aktiv olsunlar: iftardan sonra bir müddət havada gəzsinlər, yeyib oturmasınlar, yatmasınlar, əksinə, piyada yürüş etsinlər, müxtəlif idman hərəkətləri ilə məşğul olsunlar və ya açıq meydançalarda oyunlar oynasınlar. Adətən, etdiyiniz idman hərəkətlərini bu ay 30% azaldın və bu rejimi elə qurun ki, idman hər gün yox, günaşırı olsun. İftarla imsak arasında idman hərəkətləri ilə bərabər, çoxlu maye, əsasən su qəbul etmək lazımdır, bu, gücünüzün bərpası üçün çox vacibdir.

***- Fiziki passivliyin insan orqanizmi üçün hans zərərləri var?***

- Fiziki passivlik müasir dövrdə ən boyük problemlər sırasındadır. Araşdırmalara görə, fiziki passivlik və hipodinamiya ümumi ölüm riski faktorları arasında 4-cü yerdədir. ÜST-ün məlumatlarına əsasən dünyada 15 yaşından yuxarı əhalinin 31,1%-i fiziki passivdir. Fiziki passivlik ürək-damar, diabet və xərçəng kimi xəstəliklərın gedişatını ağırlaşdırır.

13-15 yaşlı yeniyetmələr arasında da vəziyyət ürəkaçan deyil. Onların 80%-i gündəlik minimal 60 dəqiqəlik aktivlik rejiminə riayət etmirlər .

Fiziki passivlik barədə danışanda oturaq rejimi də qeyd etmək lazımdır. XX əsrdə oturaq rejimin ziyanını hətta siqaret çəkmənin ziyanı ilə bərabərləşdirirdilər. "Oturmaq yeni variant siqaret çəkməkdir" (sitting is a new smoking) ifadəsi bir müddət trendə çevrilmişdi.

***- Səidə xanım, fiziki aktivlik dedikdə, hansı fiziki məşğələlər nəzərdə tutulur? Orta intensiv fiziki aktivlik hansıdır?***

- Fiziki aktivlik gündə ən azı 30 dəqiqə, həftədə 5 gün orta intensivlikdə idmanın olmasıdır. Uşaqlar və yeniyetmələr üçün bu rəqəm fərqlidir - gündə 60 dəqiqə.

Orta intensiv fiziki aktivlik isə standart rahat vəziyyətdən 3 dəfə artıq enerji tələb edən aktivlikdir. Məsələn, orta templə yürüş, velosiped sürmə, tennis, üzgüçülük və s. Məncə, yürüş aktiv qalmaq üçün ən sadə və əlçatan bir variantdır.

***- Fiziki aktivliyin insan sağlamlığı üçün nə kimi müsbət təsirləri var? Fiziki aktiv olmaqla hansı xəstəliklərin qarşısını almaq mümkündür?***

- Fiziki aktivlik ürək-damar, diabet və digər xəstəliklərin profilaktikasında və kompleks müalicəsində vacib rol oynayır. Fiziki aktivlik çəki kontrolu, sümüklərin və əzələlərin möhkəm olması üçün çox vacibdir. Tədqiqatlara əsasən bir sıra xəstəliklərin müalicəsində fiziki aktivlik dərmanla eyni, bəzi vaxtlar isə daha güclü effekt göstərir.

Aktivliyin orqanizmə müsbət təsiri elmlə sübüt olunmuşdur. Bu təsirlər arasında aşağıdakıları göstərmək olar:

- *Artıq çəkini kontrol altına salır;*
- *Qlükozanı (şəkəri) və insulin balansını tənzimləyir;*
- *Ürəyin koronar damarlarında qan axarını artırır;*
- *Trombların yaranması riskini azaldır;*
- *Qan təzyiqini tənzimləyir;*
- *Qanda lipid profili yaxşılaşdırır - "yaxşı" yağların lipoproteidlərin səviyyəsini artırır, "pis" yağların səviyyəsini azaldır.*

Bunlarla yanaşı, fiziki aktivlik insanda depressiya, stress və gərginliyi azaldır və ümumi əhvalı yaxşılaşdırır.

***- İnsanların fiziki passivliyinin əsas səbəbləri hansılardır?***

- XXI əsrdə insanların çoxu vaxtını kompüter qabağında və nəqliyyatda oturaq vəziyyətdə keçirir. Bizim bədənimiz hərəkət üçün hesablanıb. Müasir texnologiyalar və ofis işi şəraiti isə bizi hipodinamik həyat tərzinə meyilləndirir. Bu barədə çox maraqlı rəqəmlər var - böyüklər orta hesabla sutka vaxtının 90%-ni qapalı məkanlarda keçirir. Gün ərzində təxminən 9 saat oturaq vəziyyətdə oluruq. Oturaq rejimin bizim onurğamızın sağlamlığına, əzələ, skelet strukturlarına və digər sistemlərə mənfi təsiri haqqında sübut olunmuş araşdırmalar mövcuddur. Təbiidir ki, belə həyat tərzimiz bir sıra xəstəliklərin yaranmasına şərait yaradır.

***- Orta və ya ağır fiziki aktivlik fəaliyyəti zamanı dayaq-hərəkət aparatının travmaya məruz qalmaması üçün nələri tövsiyə edərdiniz?***

- İlk və ən vacib qayda - hansısa idman və hərəkət zamanı ağrı hiss edirsinizsə, onu dərhal dayandırın. Ağrı hərəkətinizin düzgün olmaması, ya da bədəninizin bu hərəkətə hazır olmaması barədə xəbərdarlıq edir. Hər bir idmandan əvvəl istilənmə mərhələsini unutmayın, hərəkətin düzgün texnikasını öyrənin, gücünüzü düzgün qiymətləndirin. Fiziki aktivliyə uyğun qidalanın, bol su için və dincəlin. Bunlar idmandan sonra əzələlərin bərpasına kömək edəcək.

***- Ölkəmizdə insanların fiziki aktivlik səviyyəsi qəbul edilən normalara uyğundurmu? Azərbaycanda daha çox hansı yaşdan olan insanlar fiziki aktiv olmağa üstünlük verirlər?***

- Ölkəmizdə də insanlar bütün dünyada olduğu kimi, hipodinamik həyata meyillidirlər. Əvvəlki illərdə insanlar arasında aparılan sorğularda əhalinin fiziki aktivliyi barədə yüksək göstəricilər mövcuddur. Məncə, bu, konkret qrup əhali üçün keçərlidir - cavanlar daha çox aktivliyə və idmana maraq göstərir. Həm də son illərdə mövcud vəziyyət - pandemiyanın əvvəlində məhdudiyyətlər və bir çox sahələrdə distant iş və təhsil də bu məsələdə öz rolunu oynayıb. Ən azından öz pasiyentlərimizdə bunu müşahidə edirik.

***- Ev şəraitində fiziki aktiv olmaq üçün hansı məşğələlər edilə bilər?***

- Gündəlik idman proqramınıza gərmələri, balans üçün hərəkətləri, ümumi bədənin sağlamlığına müsbət təsir edən, tez-tez müşahidə olunan bel və boyun ağrılarında istifadə olunan idman hərəkətlərini əlavə etmək məsləhətdir. Bu idmanları siz hospitalımızın saytında "Düz qamət - sağlam həyat" rubrikasından öyrənə bilərsiniz.

***- Səidə həkim, maraqlı müsahibəyə görə təşəkkür edirik.***

**Müsahibəni apardı:**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**
**Dilara Zamanova**




**Azəri Light və Brent markalı neftin bir barelinin 25 mart – 5 aprel tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

M.Q.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500